Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin
kollegiyasının 08.09.2021. tarixli 12 nömrəli
qərarı ilə təsdiq edilmişdir

**Qızıldan və gümüşdən hazırlanan zərgərlik məmulatlarının istehsalı və emalı işlərinin görülməsi məqsədilə dəzgahların, avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi**

# QAYDASI

## 1. Ümumi müddəalar

1.1. Bu Qayda Azərbaycan Respublikası Vergi Məcəlləsinin 164.1.54-cü maddəsinə uyğun olaraq hazırlanmışdır və qızıldan və gümüşdən hazırlanan zərgərlik məmulatlarının istehsalı və emalı işlərinin görülməsi məqsədilə dəzgahların, avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin (bundan sonra – təsdiqedici sənəd) verilməsi qaydasını müəyyən edir.

1.2. Təsdiqedici sənədin forması bu Qaydanın 1 nömrəli əlavəsi ilə müəyyən olunur.

1.3. Təsdiqedici sənəd sahibkara Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 164.1.54-cü maddəsində nəzərdə tutulan güzəştdən istifadə hüququ verir.

1.4. Təsdiqedici sənədin verilməsi üzrə müraciətlərə baxılması "İnzibati icraat haqqında" Azərbaycan Respublikasının Qanununa, digər normativ hüquqi aktlara və bu Qaydaya uyğun olaraq aparılır.

1.5. Təsdiqedici sənədin verilməsi üzrə müraciətlərə qanunvericiliklə, eləcə də bu Qayda ilə müəyyən olunmuş müddətlərdə İqtisadiyyat Nazirliyinin aidiyyəti strukturu tərəfindən baxılır.

1.6. Bu Qaydanın məqsədləri üçün sahibkar dedikdə qızıldan və gümüşdən hazırlanan zərgərlik məmulatlarının istehsalı və emalı üzrə fəaliyyət göstərən hüquqi şəxs və ya hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxs (fərdi sahibkar) başa düşülür.

## 2. Müraciətlərə baxılması və təsdiqedici sənədin verilməsi

2.1. Təsdiqedici sənədi almaq üçün sahibkar "İnzibati icraat haqqında" Azərbaycan Respublikası Qanununun 29-cu və 30-cu maddələrinin tələbləri nəzərə alınmaqla

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə bu Qaydanın 2 nömrəli əlavəsində müəyyən olunmuş ərizə ilə müraciət edir.

2.2. Ərizə ilə birlikdə aşağıdakı sənədlər təqdim edilir:

2.2.1. bu Qaydanın 3 nömrəli əlavəsi ilə müəyyən olunmuş idxalı nəzərdə tutulan dəzgahların, avadanlıqların və qurğuların siyahısı;

2.2.2. idxalı nəzərdə tutulan dəzgahların, avadanlıqların və qurğuların alınması ilə bağlı müqavilənin və ya qanunda nəzərdə tutulmuş digər qaydada əldə edilməsini təsdiq edən sənədin surəti;

2.2.3. dəzgahların, avadanlıqların və qurğuların idxalı ilə bağlı müşayiət sənədlərinin surəti (ixrac bəyannaməsi, daşıma sənədi, mənşə sertifikatı, qablaşdırma siyahısı və hesab faktura);

2.3. Təqdim olunmuş ərizəyə (ona əlavə edilmiş sənədlərə) qeydiyyata alındığı tarixdən ən gec 7 iş günü müddətində baxılır və bu Qaydanın 2.7-ci bəndinin tələblərinə uyğun olduqda, təsdiqedici sənəd tərtib edilərək sahibkara təqdim olunur və bu barədə məlumat 3 iş günü müddətində Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə təqdim edilir.

2.4. Daxil olmuş ərizədə və ona əlavə olunmuş sənədlərdə göstərilən məlumatlar bu Qaydanın 2.7-ci bəndində əks olunan tələblərə cavab vermədikdə, habelə onlarda aradan qaldırılması mümkün olmayan çatışmazlıq aşkar edildikdə, ərizənin qeydiyyata alındığı tarixdən ən gec 7 iş günü müddətində təsdiqedici sənədin verilməsindən imtina olunması barədə müvafiq qərar qəbul edilir və bu barədə məlumat 2 iş günü müddətində sahibkara təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir.

2.5. Təsdiqedici sənədin verilməsi barədə ərizədə və ona əlavə edilmiş sənədlərdə imtinaya səbəb olmayan çatışmazlıqlar aşkar edildikdə, ərizənin qeydiyyata alındığı tarixdən 5 iş günündən gec olmayaraq onların aradan qaldırılması barədə məlumat sahibkara təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir. Sahibkar həmin çatışmazlıqları məlumatı aldığı vaxtdan ən geci 10 iş günü ərzində aradan qaldırmalıdır. Bu zaman təsdiqedici sənədin verilməsi ilə bağlı müddətin axımı dayandırılır və dayandırılmış müddət təsdiqedici sənədin verilməsi müddətinə daxil edilmir. Çatışmazlıqların aradan qaldırılması barədə sahibkarın müraciətindən sonra müddətin axımı bərpa olunur.

2.6. Sahibkar ərizədə və ona əlavə edilmiş sənədlərdə aşkar olunmuş çatışmazlıqları bu Qaydanın 2.5-ci bəndində göstərilən müddətdə aradan qaldırmadıqda ərizənin baxılmamış saxlanılması haqqında qərar qəbul edildikdən sonra bu barədə məlumat 2 iş günü

müddətində sahibkara təqdim edilir və ya sifarişli poçt göndərişi vasitəsilə göndərilir. Sahibkar təsdiqedici sənədin alınması üçün təkrar ərizə ilə İqtisadiyyat Nazirliyinə müraciət edə bilər.

2.7. Təsdiqedici sənədin verilməsi barədə ərizəyə baxılarkən idxalı nəzərdə tutulan dəzgahların, avadanlıqların və qurğuların bilavasitə qızıldan və gümüşdən hazırlanan zərgərlik məmulatlarının istehsalı və emalı işlərinin təşkili ilə bağlı olması , eləcə də vergi və məcburi dövlət sosial sığorta, işsizlikdən sığorta və icbari tibbi sığorta haqları üzrə öhdəliklərin icra edilməsi vəziyyəti araşdırılır.

2.8. Zərurət yarandıqda təsdiqedici sənəd üzrə dublikatının verilməsi, dəyişikliklərin olunması və ləğv edilməsi ilə bağlı müvafiq qərar qəbul edilir və bu barədə məlumat 3 iş günü müddətində sahibkara, eləcə də Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə təqdim edilir.

## 3. Təsdiqedici sənədin ləğvi

3.1. Təsdiqedici sənəd Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi tərəfindən aşağıdakı hallarda ləğv olunur:

3.1.1. sahibkar tərəfindən müvafiq ərizə təqdim edildikdə;

3.1.2. təsdiqedici sənədi əldə etmiş hüquqi şəxs (o cümlədən xarici hüquqi şəxsin filialı və ya nümayəndəliyi) ləğv edildikdə;

3.1.3. hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyətini həyata keçirən fiziki şəxs vergi uçotundan çıxarıldıqda;

3.1.4. məhkəmənin müvafiq qərarı olduqda;

3.1.5. təsdiqedici sənədin verilməsi üçün təqdim edilmiş sənədlərdə sonralar düzgün olmayan və yaxud təhrif olunmuş (natamam) məlumatlar aşkar edildikdə;

3.1.6. təsdiqedici sənəd əsasında idxal olunmuş dəzgahların, avadanlıqların və qurğuların idxal edildiyi tarixdən üç il ərzində sahibkar tərəfindən təyinatına uyğun olmayan məqsədlər üçün istifadə edilməsi və ya üçüncü şəxsə verilməsi haqqında əsaslı məlumat əldə edildikdə və bu pozuntuların aradan qaldırılması mümkün olmadıqda;

3.1.7. Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş digər hallarda.

3.2. Təsdiqedici sənəd ləğv olunduqda, sahibkar qanunla nəzərdə tutulan güzəştlərdən istifadə hüququnu itirir və idxal etdiyi dəzgahlar, avadanlıqlar və qurğular üçün Azərbaycan Respublikasının Vergi Məcəlləsinə uyğun olaraq əlavə dəyər vergisini ödəməlidir.

3.3. Ləğv edilmiş təsdiqedici sənəd barədə məlumat 3 iş günü müddətində sahibkara, eləcə də Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinə, Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinə təqdim edilir.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollegiyasının __________ tarixli ____ nömrəli qərarı ilə təsdiq edilmiş "Qızıldan və gümüşdən hazırlanan zərgərlik məmulatlarının istehsalı və emalı işlərinin görülməsi məqsədilə dəzgahların, avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi Qaydası"na 1 nömrəli əlavə

______________________________________________

(sənədi verən orqanın adı)

**Qızıldan və gümüşdən hazırlanan zərgərlik məmulatlarının istehsalı və emalı işlərinin görülməsi məqsədilə dəzgahların, avadanlıqların və qurğuların idxalı üçün**

**TƏSDİQEDİCİ SƏNƏD**

№ _____ ____ __________ 20__ il

______________________________________________

*(sənədin verildiyi hüquqi şəxsin tam adı / fərdi sahibkarın adı, soyadı, atasının adı / VÖEN-i)*

______________________________________________

*(hüquqi şəxsin hüquqi ünvanı / fərdi sahibkarın ünvanı)*

______________________________________________

*(təsərrüfat subyektinin (obyektinin), o cümlədən istehsal sahəsinin yerləşdiyi yer)*

Bu təsdiqedici sənəd aşağıdakı siyahıda göstərilmiş dəzgahların, avadanlıqların və qurğuların ölkəyə idxalı zamanı Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 164.1.54-cü maddəsində nəzərdə tutulan güzəştdən istifadə hüququ verir.

Bu təsdiqedici sənəd əsasında idxal olunmuş dəzgahların, avadanlıqların və qurğuların idxal edildiyi tarixdən üç il ərzində sahibkar tərəfindən təyinatına uyğun olmayan məqsədlər üçün istifadə edilməsi və ya üçüncü şəxsə verilməsi haqqında əsaslı məlumat əldə edildikdə və bu pozuntuların aradan qaldırılması mümkün olmadıqda təsdiqedici sənəd ləğv olunur.

| **№** | **XİF MN-in kodu** | **Malların adları** | **Miqdarı** | **Ölçü vahidi** | **Müqavilənin rekvizitləri (tərəflərin adları və müqavilənin bağlanması tarixi)** |
|---|---|---|---|---|---|
| | | | | | |

Bu təsdiqedici sənəd müvafiq gömrük orqanına təqdim edilmək üçün verilir.

______________________ ____________ ______________________

(məsul şəxsin vəzifəsi) (imzası) (adı, soyadı)

M.Y.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollegiyasının __________ tarixli ____ nömrəli qərarı ilə təsdiq edilmiş "Qızıldan və gümüşdən hazırlanan zərgərlik məmulatlarının istehsalı və emalı işlərinin görülməsi məqsədilə dəzgahların, avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi Qaydası"na 2 nömrəli əlavə

______________________________________________

(*müraciət olunan təşkilatın adı*)

**Qızıldan və gümüşdən hazırlanan zərgərlik məmulatlarının istehsalı və emalı işlərinin görülməsi məqsədilə dəzgahların, avadanlıqların və qurğuların idxalı ilə bağlı təsdiqedici sənədin alınması üçün**

**ƏRİZƏ**

1. Ərizəçi haqqında məlumatlar:

1.1. Hüquqi şəxsin tam adı/fərdi sahibkarın soyadı, adı, atasının adı ______________

______________________________________________

1.2. Hüquqi şəxsin hüquqi ünvanı /fərdi sahibkarın ünvanı ______________

______________________________________________

1.3. Əlaqə telefonu ______________________________

1.4. Elektron poçt ünvanı______________________________

1.5. Dəzgahların, avadanlıqların və qurğuların quraşdırılacağı təsərrüfat subyektinin (obyektinin), o cümlədən istehsal sahəsinin yerləşdiyi yer:______________

______________________________________________

1.6. Hüquqi şəxsin/fərdi sahibkarın VÖEN-ni______________________________

2. Dəzgahların, avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsini xahiş edirəm.

3. Ərizəyə aşağıdakı sənədlər əlavə edilir:

| № | Sənədlərin adı | Nüsxələrin sayı | Vərəqlərin sayı | Qeyd |
|---|---|---|---|---|
| 3.1. | idxalı nəzərdə tutulan dəzgahların, avadanlıqların və qurğuların siyahısı | | | |
| 3.2. | idxalı nəzərdə tutulan dəzgahların, avadanlıqların və qurğuların alınması ilə bağlı müqavilənin və ya qanunda nəzərdə tutulmuş digər qaydada əldə edilməsini təsdiq edən sənədin surəti | | | |

| | | | | |
|---|---|---|---|---|
| 3.3. | dəzgahların, avadanlıqların və qurğuların idxalı ilə bağlı müşayiət sənədlərinin surəti | | | |

**Qeyd:** *ərizə səlahiyyətli nümayəndə tərəfindən təqdim olunduqda etibarnamə əlavə edilir.*

4. Hüquqi şəxsin/fərdi sahibkarın və ya onun səlahiyyətli nümayəndəsinin_______________

_______________________________________________

(vəzifəsi, soyadı, adı)

5. Ərizənin doldurulduğu tarix _______________________________

(gün, ay, il)

6. Hüquqi şəxsin/fərdi sahibkarın və ya onun səlahiyyətli nümayəndəsinin_______________

(imza)

M.Y.

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin kollegiyasının __________ tarixli ____ nömrəli qərarı ilə təsdiq edilmiş "Qızıldan və gümüşdən hazırlanan zərgərlik məmulatlarının istehsalı və emalı işlərinin görülməsi məqsədilə dəzgahların, avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədin verilməsi Qaydası"na 3 nömrəli əlavə

Təsdiqedici sənədin alınması üçün dəzgahların, avadanlıqların və qurğuların

**S İ Y A H I S I**

| № | XİFMN-in kodu | Malların adları | Ölçü vahidi | Miqdarı | Vahidin Dəyəri (ABŞ dolları) | Ümumi Dəyəri (ABŞ dolları) | Müqavilənin rekvizitləri (tərəflərin adları və müqavilənin bağlanması tarixi) |
|---|---|---|---|---|---|---|---|
| 1. | | | | | | | |
| 2. | | | | | | | |
| ... | | | | | | | |

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin
kollegiyasının __________ tarixli ____ nömrəli
qərarına əlavə

**Təsdiqedici sənədlərin qeydiyyatı kitabı**

| № | İmzalanmış təsdiqedici sənəd blankının qeydiyyat nömrəsi və tarixi | Təsdiqedici sənədin verildiyi şəxs | Təsdiqedici sənəd blankının nömrəsi | Təsdiqedici sənədi imzalamış səlahiyyətli şəxsin vəzifəsi, adı, soyadı | İmzalanmış təsdiqedici sənədi təhvil alan şəxsin adı, soyadı, imzası | Qeyd |
|---|---|---|---|---|---|---|
| 1. | | | | | | |
| 2. | | | | | | |
| 3. | | | | | | |
| 4. | | | | | | |
| 5. | | | | | | |
| 6. | | | | | | |
| 7. | | | | | | |